# MÜƏLLİM OLMAQ KİMİ ŞƏRƏFLİ BİR İŞ YOXDUR

"Müəllimlik sənəti, peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq olan bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Çünki müəllimlər xalqın biliklənməsinin, təhsilin inkişaf etməsinin və nəhayət, xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardır. Ona görə də bu bayram günü mən, ilk növbədə müstəqil Azərbaycanın bütün müəllimlərini ürəkdən təbrik edirəm, müəllimə, bu müqəddəs ada öz dərin hörmət və ehtiramımı, sevgi, məhəbbətimi bildirirəm. Bəyan edirəm ki, müəllim bundan sonra da müstəqil Azərbaycanın həyatında görkəmli yer tutacaq, müəllimə qayğı gündən-günə artacaq və müəllimin şanı-şöhrəti daha da yüksələcəkdir".

**Ümummilli Lider Heydər Əliyevin yeni dərs ilinin başlanması və "Bilik günü" münasibətilə Bakının Nərimanov rayonundakı 82 nömrəli məktəbdə keçirilən təntənəli toplantıdakı nitqindən, 1 sentyabr 2000-ci il**



# Ulu Öndər paytaxt məktəblərində

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqımızın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilən əbədiyaşarlıq qazanmış parlaq şəxsiyyətidir. Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında dahi insanı xatırlamaqla yanaşı, eyni zamanda onun nəcib və uzaqgörən əməllərinin uğurlu nəticələrinin şahidləriyik.

Heydər Əliyev Azərbaycan təhsilinin, elminin inkişafına xüsusi önəm verir, bu sahədə atılan hər bir addıma xüsusi həssaslıqla yanaşırdı. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın ümumi təhsil müəssisələrinin infrastrukturunun yenilənməsi, yeni məktəb binalarının tikilərək istifadəyə verilməsi ilə bağlı həyata keçirilən davamlı işlərin hazırda da bu istiqamətdə atılan addımların başlanğıcı, həmin illərdə qoyulan ənənənin davamıdır.

Heydər Əliyev Azərbaycan məktəbinə yüksək dəyər verirdi, Azərbaycan müəllimlərini çox sevirdi. Təhsili millətin gələcəyi kimi dəyərləndirən Ulu Öndər müəllimə olan hörmətini, etimadını "Mən dünyada müəllimdən yüksək ad tanımıram"-deməklə, göstərirdi.

Dahi şəxsiyyət yeni tədris ilinin başlanması və "Bilik günü" münasibətilə təhsilin bünövrəsi sayılan ümumi təhsil müəssisələrinə gedişi ilə orada müəllim və şagird kollektivinə unudulmaz anlar bəxş edirdi.

Ulu Öndəri elə müəllimlər, şagirdlər, tələbələr, bütövlükdə təhsil ictimaiyyəti də çox sevirdi. Getdiyi təhsil müəssisələrində ona olan sonsuz hörmət və ehtiramlarını nümayiş etdirirdilər.

Ümummilli Lider Heydər Əliyevin ümumi təhsil müəssisələrindəki görüşlərindən illər keçsə də vaxtilə olduğu məktəblərin müəllim kollektivləri üçün həmin günlər xoş hisslərlə yada salınan ən əlamətdar hadisədir.

Həmsöhbətimiz olan elə Bakıdakı 82, 275 nömrəli tam orta məktəblərin vaxtilə Ulu Öndərlə ünsiyyətdə olmuş müəllimləri və 23 nömrəli tam orta məktəbin sabiq direktoru məhz "Heydər Əliyev İli"ndə dahi şəxsiyyətlə bağlı fikirlərini, xatirələrini bölüşüblər.

## Təhsil işçiləri dahi şəxsiyyətlə görüşlərinin təəssüratlarını bölüşürlər

### "Dahi şəxsiyyət dərs dediyim birincilərlə görüşdü"

**Zairə Ramazanova,** *Bakıdakı 82 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi:* "2000-ci ildə Ulu Öndər Heydər Əliyev "Bilik günü"ndə bizim məktəbə şagirdləri və müəllimləri təbrik etmək üçün gəlmişdi. O zaman 30 yaşım var idi. Müəllim kimi 5 il idi ki, fəaliyyət göstərirdim. Həm sevinirdim, həm də dahi şəxsiyyətlə görüşün mənim üçün böyük anlam kəsb etdiyindən məsuliyyətim birə-beş artmışdı. Ümummilli Lideri yaxından görəcəyim anı səbirsizliklə gözləyirdim.

Ümummilli Lider birinci mərtəbədəki sinif otaqlarından birinə daxil oldu. Burada gördüyü şərait, xüsusilə siniflərdə kompüterlərin olması çox xoşuna gəldi. Sonra bizim sinif otağının qapısı açıldı və dahi şəxsiyyət mənim dərs dediyim birincilərlə görüşdü. Ulu Öndər balacalarla söhbətləşdi, mənə siniflə bağlı suallar verdi və bütün şagirdlərə hədiyyə olaraq çanta və məktəb ləvazimatları təqdim edildi. Ümummilli Liderimiz həm şagirdlərlə, həm də mənimlə çox səmimi söhbət etdi. Dahi insanın səmimiliyi həyəcanımı bir anda yox etdi. Onun müəllimlik peşəsinə, müəllim əməyinə necə hörmətlə yanaşmasının bir daha canlı şahidi oldum.

Əlbəttə ki, bir müəllim olaraq dahi şəxsiyyətin yanında durmaq, onunla söhbət etmək böyük fəxr və qürurverici bir hissdir. Heydər Əliyevi yaxından gördüyüm, onunla ünsiyyətdə olduğum üçün özümü xoşbəxt müəllimlərdən sayıram".

### "Danışmaq üçün adımı eşidəndə yenidən həyəcanlandım"

**Səma Hüseynli,** *Bakıdakı 275 nömrəli tam orta məktəbin informatika müəllimi:* "Məktəbimizin direktoru zəng edib deyəndə ki, Ümummilli Lider bizim orta ümumtəhsil müəssisəsinə gələcək, bu xəbər məni həm sevindirdi, eyni zamanda həyəcanlandırdı. Məktəbimiz tarixi hadisə yaşayacaqdı. Əlbəttə, məktəbimiz və kollektivimiz adına çox qürurlandım. Heç ağlıma da gəlməzdi ki, mən də o tarixi hadisənin bir parçası olacağam. O zaman mənim 26 yaşım var idi. Gənc müəllim olaraq təhsillə bağlı "Azərbaycan müəllimi" qəzetində məqalələrim çıxırdı, həm də o dövrdə " İlin gənc müəllimi" seçilmişdim. Mənə deyəndə ki, Ulu Öndərin qarşısında çıxış edəcəksən, çox həyəcanlandım. Bu, mənim üçün ən həyəcanverici və qürurverici hadisə idi.

Ulu Öndər öncə məktəbimizin sinif otaqlarını gəzdi. Mənim otağımın yanından keçəndə sevgiylə, təbəssümlə doğma şagirdlərimə nəzər saldı, əslində bəlkə də elə bu baxışları həyəcanımı bir az yenməyə kömək oldu.

Ümummilli Liderin çıxışı bitən kimi danışmaq üçün adımı eşidəndə yenidən həyəcanlandım. Haradasa yarım saat öncə şagirdlərimi sevgiylə izlədiyi anda məni saran rahatlıqdan əsər-əlamət qalmadı. Təsəvvür edin, Azərbaycanın ən gözəl natiqindən - Ulu Öndərdən sonra mən necə danışa biləcəyəm? Çıxışım o dahi insanın çıxışından sonra necə olacaq? Səsim titrəyə-titrəyə bu məsuliyyətli işin öhdəsindən gəlməyə çalışdım.

Ulu Öndərin məktəbimizə gəlişinin gənc nəslin təlim-tərbiyəsinə göstərdiyi böyük diqqətdən irəli gəldiyini söylədim. Hər yeni dərs ili başlayarkən məktəblərdə olmasını, pedaqoji kollektivlə, şagirdlərlə görüşməsini, dəyərli tövsiyələrini, müəllimlərin əməyinə verdiyi yüksək dəyərin bizi həmişə ruhlandırdığını, daha böyük əzmlə çalışmağa sövq etdiyini qeyd etdim. Azərbaycan təhsilinə verdiyi qiymətə görə müəllimlər adından Ümummilli Liderə dərin təşəkkürümü bildirdim.

Bəli, çox fəxr edirəm ki, bu gün mənə Ulu Öndərlə bağlı xoş xatirələrimi paylaşmaq müyəssər oldu. Ümummilli Liderin müəllimə münasibəti hər zaman örnəkdir".

### "Ulu Öndər mənim məktəbə direktor təyin olunmağım barədə tapşırıq verdi"

*Qalibə Həsənova, 23 nömrəli tam orta məktəbin sabiq direktoru:* "1994-cü il sentyabrın 3-də Ümummilli Lider Heydər Əliyev 23 nömrəli məktəbi ziyarət edərək Tahir Həsənovun barelyefinin açılışında iştirak etdi. Yadımdadır ki, Heydər Əliyev məktəbin pilləkənlərində dayanaraq çox gözəl nitq söylədi. Heydər Əlivev vətənpərvərlikdən, böyük sərkərdələr yetişdirmiş Azərbaycan xalqından, Tahir Həsənovun göstərdiyi şücaətdən, iştirak etdiyi döyüşlərdən danışdı, onun qəhrəmanlığının bütün şagirdlərə, gənclərə örnək olduğunu qeyd etdi.

Bilirsiniz, 23 nömrəli məktəb Heydər Əliyevin Milli Qəhrəman məzununun şərəfinə ziyarət etdiyi ilk orta təhsil müəssisələrindən biridir. O zamanlar mən universitetdə çalışırdım və məktəbə barelyefin açılışında iştirak etmək üçün dəvət edilmişdim.

Ulu Öndərimiz necə iztirab keçirdiyimi görərək, mənə necə ağır olduğunu hiss edərək mənim Tahirin adını daşıdığı məktəbə direktor təyin olunmağım barədə tapşırıq verdi. Həmin tarixdən 6 ay sonra, 1995-ci ilin mart ayında mən 23 nömrəli məktəbə direktor təyin edildim və 7 il, 2002-ci illədək məktəbin direktoru olaraq fəaliyyət göstərdim. Bununla Ulu Öndər mənim təsəlli tapacağımı, az da olsa dərdimi unudacağımı güman etmişdi. Bildirmək istəyirəm ki, həqiqətən bu məktəbdə işlədiyim illərdə mən ruhən dincəlirdim. ...Mən xatırlayıram ki, barelyefin açılışı zamanı çıxışında Ümummilli Liderimiz əminliklə bir gün mütləq işğal altında olan torpaqlarımızın geri qayıdacağını söylədi. Məktəbin müəllim kollektivi, şagirdlər diqqətlə Heydər Əliyevi dinləyirdi və onun bütün dediklərinə inanırdı. Xalq onu çox sevirdi və ona güvənirdi. Biz çox xoşbəxt xalqıq ki, Heydər Əliyev kimi böyük, dahi liderimizin İlham Əliyev kimi davamçısı var. Çox şükürlər olsun ki, məhz Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və gənclərimizin şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olundu, şəhidlərimizin qanı yerdə qalmadı!".

**Samirə KƏRİMOVA,**
**Lamiyə ƏLİMƏRDANOVA**